

■ Akif TƏVƏKKÜLOĞLU

## DƏRD ÇƏKMƏ

De, bu nə haldı belə?
Yenə xəyala dalıb
Üzündə, gözündə
Qəm yaşayırsan...
Dünyanın dərd-səri
Sənəmi qalıb?
Niyə bu dərdləri
Tək daşıyırsan?
O yükü çəkmə sən,
O, sənlik deyil!
O yük mənim yüküm,
Mən daşıyacam...
Səni dərd əlindən,
Qəm caynağından
Özüm qoparacam,
Mən ayıracam.
Qoy mənim çiynimə
Sən o yükləri,
Unut, bundan belə
Bütün dərdləri...
Verib qarşısına
Bax, bu əlləri
Çəpər olacağam,
Sədd quracağam.
Onsuz da öyrənib
Bu çiyin, bu can.
Hazıram çəkməyə
Dərdini hər an.
Məndən incimısin
Uca Yaradan.
Bu bəxti elə bil
Qüssədən biçib,
Qəm suyun bulağın
Gözündən içib.
Kim desə çəkəcəm
Yalandır-yalan...
De məndən savayı
Dərd çəkən hanı?
Kimdi özgələrin
Qeydinə qalan?
Əzizim dostunu,
Düşməni tanı!
Gecələri özümə,
Günü sənə verəcəm.
Özüm bəmdə oxuyub
Səni zil kökləyəcəm.
Dərdləri səndən alıb
Əsən yelə verəcəm
Qoymayacam sıxılsın
Canın qəmin əlindən
İtirib yox edəcəm
Dərdi səndən, özümdən...
Dərdi səndən, özümdən...

## SƏNDƏN XƏBƏR YOX

Səni gözləyirəm, həsrət içində...
Qəlbim alovlanır, səndən xəbər yox.
Kimi görürəmsə sənin biçimdə,
Ruhum havalanır, səndən xəbər yox.

Özün uzaqdasan, sözün əzbərim,
Ay mənim parlayan almazım, zərim,
Qoy uca dağlardan sənə gül dərim.
Bağçalar saralır səndən xəbər yox.

Gözlərin gözümə göz salıb getdi.
Baxışın üzümə iz salıb getdi.
Sənsizlik qəlbimə köz salıb getdi...
Ruhun yanımdadı, səndən xəbər yox.

Qeybəmi çəkildin? Göyəmi çıxdın?
Ayrılıq oxunu sinəmə sıxdın...
Bil ki, ay insafsız, yandırıb yaxdın.
Atəşin burdadı, səndən xəbər yox.

Nigaran qoyma gəl, ay gözəl pərim,
Sən gələn yollara xalçalar sərim...
Çox atdım düşmədi, cüt mənim zərim,
Hamı qoşalaşdı, səndən xəbər yox...

## YAŞAMAQ ÖLÇÜLƏRİ

Yaxşı yaşamaq üçün
Nə lazımdır? Dedilər,
Sorğu-sual etdilər.
Biri dedi çoxlu pul,
Biri dedi qır-qızıl.
Kimisi bol çörəyin,
Yağlı plov yeməyin,
Həsrətini çəkirdi.
Bəziləri xəyalən,
Cənnət-məkan sandığı
Bağça-bağda gəzirdi.
Kimisi var-dövlətə,
Sahib olmaq istəyir.
Çarxı dönmüş fələksə,
Öz sözünü söyləyir.
Qərib ölkədə gəzib,
Bəxtəvərəm - deyənlər,
Son mənzilim, məzarım,
Vətən olsun, deyərlər.

Kimisi çox oxuyur,
Kitabdan əl çəkməyir.
Kimi xalı toxuyur,
Zəhmətdən bezikməyir.
Kim üçünsə kosmosa,
Uçmaq çətin iş deyil.
Kimi sərgərdan gəzir
Dolanır veyil-veyil.
Kimi vaxtın sərf edir
Günlərlə eyş-işrətə...
Ağlı olan özünü
Atarmı heç zülmətə?
Bəs yaxşı yaşamağın
Ölçüləri nədədir?
Məncə, bunun cavabı
Hərənin özündədir...
Mənimçünsə yaşamaq -
Ən böyük tanrı payı.
Qismətini o verib,
İtirmə haqqı-sayı.
Verdiyi milyon yoldan,
Mən halalı seçirəm.
Halal yaşamaq üçün
Dünya malı deyilən
Hər şeyimdən keçirəm.
Mənimçün yaşamağın
Nə yaxşısı, pisi var
Yaşamaq yaşamaqdır
Onun bircə üzü var.
Ləyaqətli yaşamaq
Olsun mənim qismətim
Uca yaradanımdan
Ancaq bunu istədim!

## ADI

Xoş günlərin birində
Dənizin sahilində,
Oturmuşduq üz-üzə,
Gözlərimiz göz-gözə.
Nə danışa bilirdik,
Nə gözlərdə kədəri,
Sevinci hiss edirdik.
Əlimiz, ayağımız,
Həm canımız, qanımız
Tilsimə düşmüş təki,
Yox olmuşdu elə bil.
Yox olmuşdu canımız
Yox idi varlığımız,
Aman Allah, bu nədi?
Yoxsa yuxu görürük?
Bəlkə heç bilmirik biz,
Bu dünyadan köçmüşük?
Bir aləmdi bu yerlər,
Göm-göy suları təmiz,
Ümmana bənzər dəniz,
Sahilləri bəzənib
Heyran edir hər kəsi.
Elə bil toy qurulub.
Hər tərəfdən ucalır,
Mahnıları, bəstəsi.
Sevgililər oturub
Ağac altda, kölgədə,
Xısın-xısın danışır.
Top dalıyca qaçışan,
Uçan qağayılara,
Əl yelləyib qışqıran,
Körpə fidan balalar,
Elə bil ki, yarışır.
Burda güllər, çiçəklər,
Bir-birini çağırır
Bülbüllərin avazı,
Qəlb oxşayır, can alır.
Burda hamı canlıdır,
Hamı danışır, gülür,
Yerlə göy arasında
Özünü xoşbəxt bilir.
Biz də bu məkandayıq,
Dənizin sahilində.
Oturmuşuq, üz-üzə,
Amma nə kədərliyik,
Nə gülürük, nə şadıq...
Sükut ağuşunda biz
Buz kimiyik, donmuşuq.
Elə bil dünya bizi,
Biz dünyanı yormuşuq.
Allah görən bu nədir?
Heykələ dönmüşük biz...
Milyon illərdən bəri
Heç görüşməmişik biz?
Gendən baxanlar deyir,
Yəqin bunlar dəlidir.
Bəlkə bu günə salan,
Onların dərd-səridir.
Yox nə dərddir, nə də sər,
Bu buzlaşmış baxışa,
Tanrı vuran naxışa
Eşq deyilib əzəldən
İnsan yerə gələndən,
Həsrət dolu o gözlər,
Buza dönmüş o sözlər
Sevgi ilə isindi.
Bu hal nəymiş bilindi,
O sevgidi, o sevgidi, o sevgi...